**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**GÜLXARƏ MƏNAF QIZI ƏHMƏDOVA**

# AZƏRBAYCAN DRAMATURGİYASI VƏ MƏKTƏB TEATRI ƏNƏNƏLƏRİ

5716.01 - Azərbaycan ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**NAXÇIVAN – 2013**

**İş** Naxçıvan Dövlət Universitetinin "Azərbaycan ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: AMEA-nın həqiqi üzvü, filologiya üzrə elmlər doktoru, professor
**İsa Əkbər oğlu Həbibbəyli**

**Rəsmi opponentlər**: Filologiya üzrə elmlər doktoru, professor **Kamran İmran oğlu Əliyev**

Filologiya üzrə fəlsəfə doktoru
**Seyfəddin İbrahim oğlu Eyvazov**

**Aparıcı təşkilat**: **Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrası**

**Müdafiə** "_29_" iyun 2013-cü il tarixdə saat " $11^{00}$" -da Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən FD. 02.121 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi, Əsas bina, I mərtəbə, Böyük Akt zalı

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

**Aftoreferat** "___" may 2013-cü ildə göndərilmişdir.

**FD. 02.121 DİSSERTASİYA ŞURASININ ELMİ KATİBİ:** **dos. İ. Z.CƏFƏROV**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Məlum olduğu kimi, Azərbaycan dramaturgiyası və teatr sənəti özünəməxsus tarixə, çox zəngin ənənələrə, dərin köklərə malikdir. Hələ xalq teatrı ənənələrində realist istiqamət, xəlqilik ruhu çox güclü olmuşdur. Professional səhnə sənətimiz bu keyfiyyətləri özündə birləşdirməklə yeni məzmun keyfiyyətləri qazanmışdır. XIX əsrdə formalaşmış bu ictimai-mədəni təsisat ilk gündən xalqın mütərəqqi ideallarla, milli və vətəndaşlıq keyfiyyətləri ilə, humanist duyğularla tərbiyə olunmasını əsas məqsəd, müqəddəs amal saymışdır.Yarandığı gündən həyatilik və realizm yolunu tutmuş Azərbaycan teatrı böyük əzm və dönməzlik nümayiş etdirərək kütlələr arasında işığı, maarifi yaymağa çalışmışdır. Təsadüfi deyildir ki, dünya şöhrətli dahi siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan professional teatrının bu nəcib xüsusiyyətlərini diqqətə çəkərək söyləyirdi: "İnsanların qəlbini, şüurunu oyadan, onları azadlıq, səadət naminə hünər göstərməyə ruhlandıran bu məşəl ... xalqın həyatından doğulmuş Azərbaycan teatrı geniş tamaşaçı kütlələri ilə canlı, qırılmaz əlaqə saxlamışdır. Azərbaycan dramaturgiyasının ən yaxşı ənənələrinə xas olan vətənpərvərlik və vətəndaşlıq keyfiyyətlərini məhz bu cəhət müəyyənləşdirmişdir".[1]

Azərbaycan ictimai-mədəni fikrinin yeni mərhələsi, maarifçilik ideyalarının formalaşması və inkişafı dövrü kimi səciyyələnən XIX əsrdə sosial-siyasi, ədəbi-estetik düşüncənin bütün sahələrində, həmçinin səhnə sənəti sahəsində də böyük dəyişikliklər baş vermişdir. Belə ki, şəbih və meydan tamaşalarından professional səhnə sənətinə doğru ilk ciddi addım, uğurlu keçid də məhz bu dövrə aiddir. Artıq XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda teatra meylin güclənməsi, həvəskar səviyyəsində olsa da müasir ədəbi-estetik prinsiplərə uyğun gələn tamaşalar hazırlamaq səyi baş tutmuşdur.

Tədqiqatlar göstərir ki, görkəmli Azərbaycan alimləri ölkəmizdə dramaturgiya və məktəb teatrı problemini ayrı-ayrı məqamlarda diqqətə çəkmiş, onun öyrənilməsinin əhəmiyyətli olduğunu məxsusi vurğulamışlar. Akademik İsa Həbibbəyli haqlı olaraq yazır ki, "XIX əsrin 80-90-cı illərində teatr və məktəbin birləşməsinin mühüm əhəmiyyəti var idi. Bu iki qüvvətli ideoloji mərkəzin eyni mövqedən fəaliyyət göstərməsi milli şüurun oyanışına, maarifçilik hərəkatının ritminin sürətlənməsinə ciddi təsir

---

1 Heydər Əliyev və mədəniyyət. 3 cilddə, III cild. Bakı: "Nurlan" Nəşriyyat - Poliqrafiya Mərkəzi, 2008, s. 207

göstərmişdir". [1]

Azərbaycanda, o cümlədən Naxçıvanda teatr sənətinin məktəb teatrı kimi meydana gəlməsi aşağıdakı elmi qənaətin irəli sürülməsi zərurətini yaratmışdır: "Ümumiyyətlə, "məktəb teatrı" indiyədək xüsusi olaraq öyrənilməmiş maraqlı elmi problemdir. Bu mövzuda ayrıca tədqiqat aparılmasına ciddi ehtiyac vardır".[2]

Görkəmli teatrşünas alim Cəfər Cəfərov hələ ötən əsrin əllinci illərində belə bir faktı diqqətə çəkərək yazırdı ki, "Bakıda olduğu kimi, başqa şəhərlərdə də əsas teatr təşkilatçıları qabaqcıl müəllimlərdən və ədiblərdən ibarət idi. Bunların içərisində ... Haşım bəy Vəzirov, B. Bədəlbəyov, S. Vəlibəyov, F. Köçərli, H. Sarıcalinski, Muxtar Muradov, İ. Şəfibəyov, C. Qaryağdı (Şuşa), Məhəmməd Tağı Sidqi, C. Məmmədquluzadənin qardaşı Mirzə Ələkbər, dramturq Eynəli Sultanov (Naxçıvan), Rəşid bəy Əfəndiyev (Nuxa) xüsusilə qeyd edilməlidir".[3]

Göründüyü kimi, peşəkar teatrın yaranması həm də məktəb teatrı ənənələrinin meydana çıxması və inkişafı tarixi kimi qiymətləndirilə bilər. "O zamankı müstəmləkə Azərbaycan şəhərində milli teatr başqa cür də yarana bilməzdi. O yalnız həvəskar tamaşaları əsasında doğulub özünə yol aça bilərdi".[4] Lakin bir həqiqət də vardır ki, əgər professional teatrın yaranması məktəb teatrına bağlıdırsa, məktəb teatrının bütün sonrakı inkişafı peşəkar teatrın nəcib ənənələri ilə əlaqədardır.

Dram əsərlərində həyatın və xarakterlərin real, canlı və obyektiv şəkildə təsvir edilməsi teatr üçün zəruri cəhətlərdən biridir. Bu baxımdan məktəb teatrı ənənələrində hansı dramaturji "materiala" üstünlük verilməsi məsələsinə də diqqət yetirilməlidir. Mirzə Fətəli Axundzadə, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun kimi görkəmli yazıçıların dram əsərlərindən hansına və nə üçün müraciət edildiyinin öyrənilməsi də xüsusi əhəmiyyət daşıyır.

Nəzərə çatdırmaq istədiyimiz daha bir cəhət isə ondan ibarətdir ki, Azərbaycan məktəb teatrının müxtəlif aspektləri haqqında maraqlı, orijinal, fundamental fikirlər mövcuddur. Bununla belə, tədqiqatçı alimlər Azər-

---

1 Həbibbəyli İ.Ə. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997, s.178

2 Yenə orada, s.178

3 Cəfərov C. Azərbaycan dram teatrı. Bakı: Azərnəşr, 1959, s. 43

4 Yenə orada , s. 42

baycan məktəb teatrı ənənələri probleminin öyrənilməsinə həsr olunmuş ayrıca tədqiqat əsərləri yazmamışlar. Mövzunun əhatəli və sistemli tədqiqi ilk dəfə bu dissertasiyada öz əksini tapmışdır.

Beləliklə, tarixən formalaşmış, çox böyük və əhəmiyyətli dövrün ədəbi-mədəni hadisəsi kimi Azərbaycan dramaturgiyası və məktəb teatrı tarixinin və onun mütərəqqi ənənələrinin öyrənilməsinin ədəbiyyatşünaslığımızın, bütövlükdə mədəniyyət tariximizin müəyyən bir probleminin həlli, bu sahədəki boşluğun aradan qaldırılması baxımından aktuallıq kəsb etdiyi bir daha aydınlaşır.

**Tədqiqatın obyekti** ictimai-mədəni irs kimi Azərbaycan dramaturgiyası və ölkəmizdə teatr sənətinin yaranması və inkişafı prosesidir.

**Tədqiqatın predmetini** Azərbaycan dramaturgiyasına istinad edən və milli teatr tarixində özünəməxsus yol keçmiş məktəb teatrı ənənələri təşkil edir.

**Tədqiqatın məqsədi** XIX əsr Azərbaycan maarifçiliyinin mübarizə üsulları və formalarından biri kimi meydana çıxmış dramaturgiyanın və məktəb teatrının tarixini, onun sonrakı dövrlərdə inkişaf yollarını müəyyənləşdirmək, vaxtilə formalaşmış məktəb teatrının milli ictimai-mədəni prosesin dinamikasına verdiyi səmərəni üzə çıxarmaq, yerini və rolunu aydınlaşdırmaqdan ibarətdir. Bu məqsədə müvafiq aşağıdakı vəzifələrin həlli nəzərdə tutulmuşdur:

- Azərbaycan professional teatr sənətinin formalaşmasının (məktəb teatrı kimi yaransa da) məhz milli dramaturgiyanın yaranması və inkişafının məntiqi nəticəsi olduğu haqqında dolğun fikir və təsəvvür yaratmaq, bu məsələnin elmi-nəzəri təhlilini vermək.
- Məktəb teatrı tarixində görkəmli Azərbaycan dramaturqlarının əsərlərinin səhnə təcəssümünə, bu teatrın və dram dərnəklərinin repertuarının seçilmə meyarları məsələsinə diqqət yetirmək, analitik şərhlər vermək.
- Məktəb teatrının və müstəqil teatr truppalarının yaradılması və inkişafında ziyalı müəllimlərin fədakarlıq nümunəsi olan fəaliyyətini, mübarizə əzmini və səylərini elmi cəhətdən dəyərləndirmək.
- XX əsrin iyirminci illərindən sonrakı dövrlərdə məktəb teatrı və dram dərnəklərinin formalaşması və inkişafı məsələlərini öyrənmək.
- Sovet dövründə və müstəqillik mərhələsində Azərbaycan peşəkar teatr sənətinin yaranması və inkişafında məktəb teatrı ənənələrinin rolunu və mövqeyini aşkara çıxarmaq.
- Azərbaycan məktəb teatrının ayrılmaz üzvi tərkib hissəsi kimi Naxçıvanda məktəb teatrı ənənələrinin formalaşması və inkişaf tarixini təd-

qiq etmək.

- Ali təhsil müəssisələrində teatr studiyalarının, dram dərnəklərinin yaranması, inkişaf tarixini öyrənmək və bu sahədə müasir vəziyyəti təhlil edib ümumiləşdirmək.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakı cəhətlərlə müəyyənləşir:

- Dissertasiyada ilk dəfə olaraq milli dramaturgiyaya əsaslanan peşəkar səhnə sənətinin yaranması və inkişafı yollarını müəyyənləşdirən Azərbaycan məktəb teatrı yeni arxiv materialları, dövrü mətbuat materialları, tədqiqat əsərlərindəki xüsusi əhəmiyyət kəsb edən faktlar əsasında sistemli şəkildə və ardıcıllıqla araşdırılıb öyrənilir.

-Dissertasiyada xalq müəllimlərinin və yaradıcı ziyalıların məktəb teatrının inkişafındakı rolu müəyyən olunur; ictimai-mədəni hadisə kimi Azərbaycan məktəb teatrının özünəməxsus inkişaf tarixi tədqiq edilərək ümumiləşdirilir.

-Məktəb teatrının ədəbiyyat və səhnə sənətimiz üzrə verdiyi səmərə üzə çıxarılır. Bundan başqa, dissertasiyada mövcud elmi-ədəbi fikirdə və teatr tarixi üzrə tədqiqatlarda problemlə bağlı birtərəfli fikir və mülahizələrə obyektiv elmi münasibət göstərilir, mübahisəli görünən məsələlərə aydınlıq gətirilir, mövzuya tam, bitkin şərhlər verməyə səy və təşəbbüs edilir.

**Tədqiqatın metodoloji əsası.** Dissertasiyanın elmi-metodoloji əsasında görkəmli ədəbiyyatşünas və teatrşünas alimlərin ümumnəzəri əhəmiyyət kəsb edən fikirləri, problemlə bağlı məsələlərin obyektiv və hərtərəfli təhlil prinsipləri durur. Problemin şərhində tarixilik, faktlara elmi yanaşma, sistemli təhlil əsas götürülmüşdür.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** İşdə əksini tapmış məsələlər teatr tariximizi yeni nəzəri müddəalarla zənginləşdirməyə xidmət edə bilər. Tədqiqatın nəticələrindən ali ümumtəhsil məktəblərində XIX-XX əsr və müstəqillik dövrünün Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin öyrədilməsi prosesində, habelə, dərslik və vəsaitlərin, mövzu ilə bağlı digər müxtəlif növ nəşrlərin hazırlanması işində istifadə oluna bilər.

Dissertasiya XIX əsrdən başlamış dövrümüzə qədərki Azərbaycan mədəniyyətinin, dəqiq ifadə etmiş olsaq milli teatr tarixinin inkişaf yollarını öyrənən tədqiqatçı alimlər, müəllim və tələbələr üçün də nəzəri-təcrübi cəhətdən faydalı olar.

Tədqiqat işində çıxarılan nəticələrdən, irəli sürülən tövsiyyələrdən müasir mərhələdə orta və ali məktəblərdə teatr studiyalarının və dram dərnəklərinin təşkilində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın mövzusu 22 yanvar

2001-ci il tarixdə (protokol №5) Naxçıvan Dövlət Universitetinin Elmi Şurasında təsdiq olunmuşdur.

Tədqiqat işi Naxçıvan Dövlət Universitetinin "Azərbaycan ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın mövzusu ilə bağlı Naxçıvan Dövlət Universitetində, AMEA Naxçıvan Bölməsində keçirilən konfranslarda məruzələr edilmiş, müxtəlif elmi məcmuələrdə 7 elmi məqalə nəşr olunmuşdur. O cümlədən "Türkiye - Azerbaycan Medeni ilişkilerinin inkişafında öğrenci tiyatrosunun rolü" adlı məqalə "Yeni tiyatro" iki aylık sahne sanatları dergisində nəşr olunmuşdur. (Türkiyə, İstanbul: 2009, №11, s. 37-40)

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatların siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, metodoloji əsası, nəzəri və praktik əhəmiyyəti, nəticələrin aprobasiyası şərh olunmuşdur.

Tədqiqatın **"Azərbaycan teatrının yaranmasında və inkişafında məktəbin və xalq müəllimlərinin rolu (1873-1920-ci illər)"** adlı birinci fəsli üç yarımfəsildən ibarətdir. I fəslin **"Azərbaycan dramaturgiyası və məktəb teatrı"** adlı **I** yarımfəslində qeyd olunur ki, milli dramaturgiyamızın məktəb teatrı səhnəsində necə yer tutmasını müəyyənləşdirmək bu prosesdə hansı əsərlərdən istifadə olunması məsələsinə aydınlıq gətirmək deməkdir. İlk tamaşa üçün "Lənkəran xanının vəziri"nin seçilməsində digər cəhətlərlə yanaşı, həvəskar aktyorların (şagirdlərin) maraq dairəsi, arzu və istəkləri də nəzərə alınmışdır. Pyesdəki hadisələrin, psixoloji vəziyyətlərin, şərti finalın müsbət ideala xidmət etmək vəzifəsi, yönəlikliyi məktəbli gənclərin zövqünə və ruhuna daha müvafiq gələ bilərdi və belə də oldu.

Mirzə Fətəli Axundzadənin digər əsərləri də müəllim və şagirdlər tərəfindən sevilə-sevilə, böyük həvəs və ruh yüksəkliyi ilə tamaşaya qoyulmuşdur. O zamankı cəmiyyətin (tamaşaçının) zövqünü, əxlaqi və mənəvi aləmini formalaşdırmaq imkanlarına malik əsərlər kimi "Hekayəti-Molla İbrahimxəlil kimyagər" və "Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur" komediyaları milli səhnə sənətimizin

formalaşması və inkişafında mühüm rol oynamışdır. Maraqlıdır ki, müəllim Cəlil Məmmədquluzadə həvəskar aktyor və rejissor kimi fəaliyyəti dövründə Mirzə Fətəli Axundzadənin məhz bu əsərlərinə müraciət etmişdir.

XIX əsrin sonlarında Azərbaycan dramaturqları Mirzə Fətəli Axundzadənin maarifçilik ideyalarını ləyaqətlə davam və inkişaf etdirirdilər. Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə kimi dramaturqların pyesləri müəllim və tələbələrin dönə-dönə müraciət etdiyi səhnə əsərləri idi.

XX əsrin əvvəllərində səhnə sənətində baş verən keyfiyyət dəyişiklikləri peşəkar teatrla məktəb teatrı arasında sərhədlərin müəyyənləşməsinə, beləliklə, uşaq dramaturgiyasının meydana gəlməsi və inkişafına şərait yaratdı. Doğrudur, Cəlil Məmmədquluzadənin hələ 1889-cu ildə qələmə aldığı "Çay dəsgahı" birpərdəli alleqorik pyesi Azərbaycan uşaq dramaturgiyasının ilk nümunəsi idi. Lakin müəyyən müddət sanki bu ənənə unuduldu. XX əsrin ikinci on illiyindən başlayaraq Abdulla Şaiqin bu sahə ilə böyük zövq və həvəslə məşğul olmasını müşahidə edirik. Ədibin uşaqlar üçün yazdığı pyeslər uzun müddət məktəb səhnələrindən düşməmiş, uşaq dramaturgiyasının təşəkkülü üçün uğurlu zəmin yaratmışdır.

Akademik Məmməd Arifin fikrincə, XX əsrin iyirminci illərində iki dramaturq gənclərin diqqətini daha çox cəlb edirdi: Hüseyn Cavid və Cəfər Cabbarlı. Cəfər Cabbarlı dramaturgiyası müasirlik ruhunun daşıyıcısı kimi öz mənşəyini teatr və dramaturgiyamızın sağlam realist ənənələrindən alırdı. Bütövlükdə, Cəfər Cabbarlı teatrında elə bir qüvvə var idi ki, həmin qüvvə bu teatra sözün həqiqi mənasında çoxlu pərəstişkarlar qazandırırdı. Bu teatra gəncliyin, xüsusilə tələbələrin pərəstişkarlığı nəhayətsiz idi.

Azərbaycan teatrının repertuar və üslub zənginliyində Hüseyn Cavid əsərlərinin özünəməxsus yeri vardır. Ötən əsrin 20-ci illərində dramaturqun "Şeyx Sənan", "Uçurum", "İblis", "Topal Teymur" kimi pyesləri tamaşaya qoyulmuşdur. Ədəbiyyatşünaslığımızda birmənalı şəkildə söylənildiyi kimi, ümumbəşəri ideallar başqa heç bir dramaturqun yaradıcılığında Cavid sənətində olduğu qədər "milliləşməmişdir". Cavid əsərləri Azərbaycan teatrının ən lətif və gözəl, həm də bənzəri olmayan çələngidir.

Ötən əsrin 30-cu illərində Azərbaycan teatrının repertuarında Mirzə İbrahimovun, Səməd Vurğunun, Sabit Rəhmanın, Mehdi Hüseynin, daha sonralar isə İlyas Əfəndiyevin, Bəxtiyar Vahabzadənin, Nəbi Xəzrinin, müasirlərimiz olan Anarın, Elçinin və başqalarının əsərlərinin möhkəm yer tutması əhəmiyyətli hadisə idi.

Səməd Vurğunun Azərbaycan səhnəsində dönə-dönə oynanılan "Vaqif" pyesində vətənpərvərlik ideyasının, xalq mənafeyi probleminin ön

plana çəkilməsi və əsərin baş qəhrəmanı Vaqifin bu mənafeyin ilhamvericisi kimi mübarizəsi istər-istəməz tamaşaçını riqqətə gətirir, əsərdəki hadisələrə diqqət kəsilməsinə zəmin yaradırdı. Pyesinin yüksək ideya-bədii məziyyətləri məktəbli "tamaşaçıların" da ruhuna və zövqünə uyğun idi. Axtarışlarımız belə bir qənaətə gəlməyə əsas verir ki, "Vaqif" pyesinin məktəb teatrının "repertuarında" ən çox oynanılan tamaşa kimi qiymətləndirək. Respublikanın elə bir ümumtəhsil məktəbi tapmaq çətindir ki, orada "Vaqif" pyesi tamaşaya qoyulmasın.

Ötən əsrin 30-cu illərindən başlayaraq Azərbaycan uşaq dramaturgiyası özünün yeni formalaşma mərhələsinə qədəm qoymuşdur. Abdulla Şaiq, Mir Mehdi Seyidzadə, Əyyub Abbasov, Mikayıl Rzaquluzadə, Zeynal Cabbarzadə, daha sonralar Yusif Əzimzadə, İsgəndər Coşqun, Səyavuş Məmmədzadə, Xanım Əlibəyli, Ramiz Heydər, Əli Səmədov və başqaları uşaq və gənclər dramaturgiyası sahəsində əhəmiyyətli xidmət göstərmişlər. Qələmə alınan əsərlərdə uşaqların mənəvi-əxlaqi tərbiyəsi, təbiətə, insana təmiz hiss və duyğularının formalaşdırılması başlıca məqsəd olmuşdur. Yeniyetmələrin qəlbində nəcib hisslər oyatmasında, onların gözəl və ümidli arzularına qanad verməsində, gənc nəslin insanpərvər, gözəl zövqə malik olmaq kimi keyfiyyətlərlə tərbiyə olunmasında uşaq dramaturgiyasının rolu inkaredilməzdir. Bu əsərlərin digər ədəbi nümunələr kimi böyüyən nəslin təhsil-təlim işlərinə müsbət təsirini də nəzərə alsaq, bu məzmun istiqamətində yazılacaq yüksək sənət nümunələrinə həmişə böyük ehtiyac vardır.

I fəslin II yarımfəslı **"Məktəb teatrı ənənələri Azərbaycan proessional teatr sənətinin yaranması və inkişafının əsası kimi"** adlanır. Burada ilk əvvəl Azəbaycan xalqının qədim tarixə malik teatr ənənələrinin mənşəyi, yaranma və inkişaf xüsusiyyətləri haqqında elmi ədəbiyyatda formalaşmış fikir və mülahizələrə münasibət ifadə olunur. Daha sonra Azərbaycan professional səhnəsinin 1873-cü il mart ayının 10-dakı ilk tamaşası, onun hazırlanma şəraiti, tamaşa üçün Mirzə Fətəli Axundzadənin hansı əsərinin seçildiyi, tamaşanın təşkilatçıları, "aktyor heyəti" və s. məsələlərdən bəhs edilir.

İlk tamaşa üçün Mirzə Fətəli Axundzadənin hansı əsərinin seçilməsi haqqında mənbələrdə iki müxtəlif məlumatın olması müəyyən dövr ərzində teatr tarixi haqqında tədqiqatlarda da iki müxtəlif rəyin mövcudluğu ilə nəticələnmişdir. İkiləşmiş rəyin, müxtəlif fikirlərin əsasında H. Zərdabi və N. Vəzirovun bu tarixi hadisədən uzun müddət sonralar yaddaşın verdiyi imkanlar daxilində xatirə-məlumatları və daha etibarlı, mötəbər sayılmalı mənbə kimi rəsmi sənədlər, afişalar durur. Lakin burada bir məqam

üzərində düşünmək vacibdir ki, tamaşanın təşkilatçıları M.F. Axundzadənin altı komediyasından niyə məhz "Lənkəran xanının vəziri"ni seçmişlər. Bu məsələyə aydınlıq gətirən etibarlı mənbələrdən biri Həsən bəy Zərdabinin Mirzə Fətəli Axundzadəyə göndərdiyi 7 iyun 1873-cü il tarixli məktubudur. Məktub repertuarın seçilməsi məsələsinə müstəqil baxışın ifadəsi kimi maraqlıdır. Məktubda Mirzə Fətəli Axundzadəyə müraciətən yazılır ki, pyeslərinizin "...hamısına baxmışam, ancaq bədbəxtlikdən qalanlarını ifa üçün münasib bilmirəm. Məsələ tək bir meymun, ya ayı rolunun oynanmasında deyil, bütün şəraitin özü (kursiv bizimdir – G.Ə.) bizim həvəskarlar tamaşaçı üçün yaramır. Təbriz vəkillərini, düzdür, qoymaq olar, ancaq heyf ki, orada bizim tamaşaçıların əqlini qidalandıra biləcək şey azdır. Bizim tamaşaçıların əksəriyyəti isə daha çox hissə təsir edən şeyləri sevir, bir sözlə effekt axtarır." [1]

Bəhs olunan komediyaların siyahısına "Müsyo Jordan və dərviş Məstəli şah" əsərini də əlavə etmiş olsaq Həsən bəy Zərdabi üçün hələlikdə ilk tamaşa olmaq baxımından münasib, "həvəskar aktyorların" imkanlarına daha yaxını, zöqlərinə daha uyğun gələni "Lənkəran xanının vəziri" ola bilərdi. Çünki burada ailə-məişət münasibətləri, insan hissləri zəminində baş verən hadisələr, hakim təbəqənin ölkədə qayda-qanunun yaratmaq üsullarının eybəcərliyi, qəhrəmanın öz niyyətinə çatmaq üçün çalışması, maarifçi hakim ideyalarının təbliği oyunçuların–məktəblilərin də, tamaşaçıların da əqlini qidalandıra biləcək səhnələrdir. Digər tərəfdən, komediyanın mövzusu çar senzurasının "gözündən" yayınmağa imkan verirdi.

Realnı məktəbin şagirdləri tərəfindən göstərilən tamaşa Azərbaycan professional səhnə sənətinin əsasını qoydu. Bu tarixi-mədəni hadisə həm də Azərbaycan məktəb teatrı ənənələrinin başlanğıcı idi. Tamaşanın bütün "aktyorları" həvəskar məktəblilər idi.

H. Zərdabi teatr tamaşasını hazırlayarkən məhz istedadlı şagirdləri seçmişdi. Bunların içərisində öz istedadı ilə fərqlənən N. Vəzirov, Ə. Gorani və başqaları var idi. Sonralar N. Vəzirov realist bir sənətkar, görkəmli dramaturq, rejissor, aktyor kimi tanınmışdır. Onun yaradıcılıq fəaliyyəti Azərbaycan dramaturgiyasını janr və formaca yeniləşdirdi.

Bu "teatr truppası"nda aktyorlar Bakı real məktəbinin yuxarı sinif şagirdlərindən seçilmişdi. Tamaşaya məktəbin müəllimi quruluş vermiş, bütövlükdə səhnənin formalaşdırılması işinə cavabdehlik daşımışdı. Geyim və dekorasiya əşyalarını məktəbli aktyorlar ordan-burdan toplaya bilmişdi-

[1] M.F. Axundov. Əsərləri. Üç cilddə, III cild, Bakı: Elm, 1988, s. 314-315

lər. Bir sözlə, səhnə sənətimizin əsasını qoyan və həqiqətən də, əsl Azərbaycan ziyalısı adını daşıyan bu insanlar Azərbaycan maarifi, mədəniyyətinin böyük gələcəyi uğrunda mübarizə aparmış, əzmkarlıq göstərmişlər.

Tədqiqatın I fəslinin III yarımfəsli **"Məktəb teatrının formalaşması və inkişafında xalq müəllimləri və ziyalıların rolu"** adlanır.

1873-cü ildə göstərilən üç tamaşa tarixin yaddaşına çox xəsisliklə yazılsa da, bu tamaşaların alovunun şöləsi tezliklə Naxçıvan, Şuşa, Gəncə, Quba, Nuxa, Dərbənd, Tiflis, İrəvan, Aşqabad kimi şəhərlərdə göründü. 1874-cü ilə aid edilən bir mənbə-məlumatı etibarlı saysaq, həmin ildə Şuşada "Hacı Qara" komediyasının oynanılması professional səhnəmizin tarixində "ikinci qaranquş" hesab oluna bilər.

1875-ci ildə Quba şəhərində, 1879-cu ildə isə Şəkidə teatr tamaşaları göstərilmişdir. Şəkidə yerli qüvvələrin köməyi ilə göstərilən tamaşanın təşkilatçısı məşhur müəllim, yazıçı-dramaturq Rəşid bəy Əfəndiyev idi.

XIX əsrin ikinci yarısından Bakıda iri sənayenin, kapitalist münasibətlərinin sürətli inkişafı şəhərin mədəni həyatının yüksəlməsinə səbəb oldu. Azərbaycanın müxtəlif yerlərindən ziyalılar Bakıya gəlir, özlərinin maarifçi fəaliyyətləri üçün buranı daha geniş meydan hesab edirdilər. Bakı tədricən milli düşüncəni əks etdirən qüvvələrin mərkəzinə çevrilirdi. Soltan Məcid Qənizadə, Həbib bəy Mahmudbəyov, Nəcəfqulu Vəliyev, Nəriman Nərimanov, Əsgərağa Adıgözəlov Gorani, Cahangir Zeynalov, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev və başqaları artıq yeni, sağlam ruhlu, yüksək təhsil görmüş, xalqını sevən və ona xidmət etməyi həyat amalı seçən ziyalılar idi.

Müəllim Həbib bəy Mahmudbəyov ilk aktyor truppasını yaratdı. Truppa dövrün tələblərini həll etməyi öz üzərinə götürmüşdü. Həbib bəy özü tamaşalarda əsas rolları məharətlə oynayırdı. Truppanın fəaliyyətində xalq məktəblərinə maddi kömək göstərilməsi, kasıb uşaqların geyim və məktəbli ləvazimatı ilə təmin edilməsi, istedadlı uşaqların istər ölkə daxilində, istərsə də xaricdə təhsil alması naminə fədakarlıqlar xüsusi qeyd olunmalıdır.

Bakı, Naxçıvan, Şuşa, Nuxa, Gəncə, Quba, Şamaxı, Lənkəran kimi şəhərlərdə, eləcə də əhalisinin sayına və şəhər məişətinə görə o qədər də inkişaf etməmiş Kürdəmir, Ağdam, Ağdaş, Ağcabədi, Karyagin, Salyan kimi şəhərlərdə, Tərtər, Malıbəyli, Baş Əylis kimi kəndlərdə göstərilən teatr tamaşalarından əldə edilən pullar məktəb təhsilinin xeyrinə sərf olunurdu.

Məktəb teatrının yaranması və inkişafında İrəvan, Dərbənd, Tiflis, Aşqabad məktəblərinin də rolu və yeri böyükdür. Araşdırmalar göstərir ki,

qərbi Azərbaycanda teatr sənətimizin bu sahəsi dövrünə görə geniş yayılmış, teatr mədəniyyəti tariximizin əhəmiyyətli səhifələrini ləyaqətlə təmsil etmişdir. Bu işdə İrəvan rus-Azərbaycan məktəbinin fəaliyyəti xüsusi qeyd olunmalıdır. Məktəbin hazırladığı tamaşalar kənarda ali təhsil alan kasıb tələbələrə və yoxsul şagirdlərə kömək məqsədi daşıyırdı.

Hüseyn Ərəblinski və Mir Mahmud Kazımovski, əməkdar incəsənət xadimi Əhməd Qəmərlinski kimi müqtədir sənətkarların yetişməsində, onların səhnədə ilk uğurlu addımlarını atmasında rus-Azərbaycan məktəblərində fəaliyyət göstərən "məktəb teatrlarının" tarixi xidmətləri olmuşdur. Faktların təhlili göstərir ki, rus-Azərbaycan məktəblərində səhnə sənətinin ünsürləri elə ilk siniflərdən öyrədilirdi ki, bu da məktəb teatrımızın maraqlı səhifələri kimi qiymətləndirilə bilər. Bu məktəblərdə ədəbi səhnəciklər, kiçik pyeslər üzrə tamaşaların hazırlanmasına xüsusi diqqət yetirilirdi.

Qeyd edək ki, milli-ictimai hərəkat tariximizdə yeni, orirjinal təhsil-tərbiyə müəssisələri olan rus-Azərbaycan məktəbləri qızlarımızın da "məktəb teatrı"nın yaranmasının təməl daşlarını qoydu. Bu tamaşalarda rolları qadın müəllimələr və məktəbli qızlar oynayırdılar. 1901-ci ildə Bakıda Zeynalabdin Tağıyevin açdığı rus- Azərbaycan qız məktəbi bu işdə xüsusilə fərqlənmişdir. Qız məktəbinin teatr həvəskarları tamaşadan əldə edilən vəsaiti bütünlüklə xeyriyyə işlərinə sərf edirdilər.

Məktəb teatrından bəhs edərkən Qori və İrəvan Müəllimlər Seminariyalarının bu sahədəki uğurlu fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Bu təhsil müəssisələrdə təlim-tərbiyə alan seminaristlər mədəni-kütləvi tədbirlərdə yaxından iştirak edir, ədəbi gecələr üçün ssenarilər yazır, teatr tamaşalarında aktyor sifətilə iştirak edirdilər.

Dissertasiyanın **"Sovet dövründə və müstəqillik mərhələsində Azərbaycanda məktəb teatrı ənənələri"** adlı II fəsli üç yarımfəsildən ibarətdir. I yarımfəsil **"Azərbaycan dramaturgiyası məktəb teatrı səhnəsində"** adlanır və iki bənddən ibarətdir.

II fəslin I yarımfəslinin I bəndi **"Sovet məktəbində dram dərnəkləri"** adlanır. Bu bənddə göstərilir ki, Azərbaycan Demokratik Respublikası milli oyanış və azadlıq ideyalarının yayılmasına xüsusi diqqət yetirdiyindən teatrın da öz işini bu istiqamətdə qurması günün tələbinə çevrilmişdir. Milli məktəblərdə yeni məzmun istiqamətinə malik və yüksək tərbiyəvi xüsusiyyətləri ilə seçilən teatr ənənələri formalaşmış, mütərəqqi cəhətlər öz mövcudluğunu qoruyub saxlaya bilmişdi. Bakı, Naxçıvan, Şamaxı, Şuşa, Şəki, Lənkəran kimi mədəni mühüt mərkəzlərində və digər şəhərlərdə, hətta ucqar kəndlərdə belə məktəb teatrları öz fəaliyyətini davam etdirirdi.

Azərbaycanda sovet hakimiyyətinin bərqərar olması ilə digər mədəni təsisatlar kimi ölkə teatrı da sinifsiz cəmiyyət ideyası ilə yaşayan gənc nəslin tərbiyəsi, eyni zamanda aktyorların sırasını həqiqətən istedadlı, incəsənəti sevən adamlarla təmin etməkdən ötrü geniş ideoloji təbliğata başlanmışdır.

Bəhs olunan dövrdə (oktyabr 1920-ci il) Azərbaycan Dövlət Dram Studiyasının təşkil olunması səhnə sənəti tariximizdə əhəmiyyətli hadisə idi. Studiyada oxuyanlar içərisində sonralar respublikanın tanınmış teatr xadimləri olan Mir Seyfəddin Kirmanşahlı, İsmayıl Hidayətzadə, Ağasadıq Gəraybəyli də vardı. 1923-cü ildə studiya teatr məktəbinə çevrildi. 1923-cü ildə məktəbin aktyorluq bölməsinə ilk qəbul keçirildi və 40 nəfər gənc qəbul edildi. Onlardan 12-si azərbaycanlı qızları idi ki, bu da o zaman üçün böyük nailiyyət hesab edilə bilər.

Teatr sərt ideologiyanın daşıyıcısı olmasına baxmayaraq ilk illərdən kütlələrin mənəvi səviyyəsinin yüksəldilməsi məqsədilə məktəblərdə, iri müəssisələrdə dram dərnəklərinin təşkili və inkişafına xüsusi diqqət yetirilirdi. Bu dövrdə bir çox istedadların üzə çıxarılması, yetişməsində mühüm rol oynayan məktəblər, istehsalat müəssisələri, mədəni tədbirlər üçün nəzərdə tutulmuş klublar, parklar teatr sənətinin əhali arasında yayılmasında əhəmiyyətli rol oynayırdı. Əksər qüdrətli sənətkarlarımızın professional səhnəyə gələn yolu məktəb teatrından, bədii özfəaliyyət kollektivlərindən başlamışdır. Görkəmli aktyorumuz Ələsgər Ələkbərovun həyat yolu buna canlı misaldır. Ələsgər Ələkbərov 1918-ci ildə Bakı realını məktəbinin birinci sinfinə daxil olur. O, hələ kiçik yaşlarından şeirə, sənətə həvəs göstərir, şeirlər əzbərləyir, bayram və yığıncaqlarda çıxış edirdi. Gənc teatr həvəskarı Azərbaycanda sovet hakimiyyətinin ilk ilindən şəhər 9 nömrəli, 1923-cü ildən isə 23 nömrəli məktəbində oxuyarkən həmişə məktəb dram dərnəyinin fəal və həvəsli üzvlərindən biri olur. O, bu dövrdə yaranmış Mir İbrahim Əbilov adına klubda fəaliyyət göstərən dram dərnəyinin üzvü olmuşdur.

Təhlil və müşahidələrimiz göstərir ki, sovetləşmə dövrünün ilk illərində (XX əsrin 20-ci illərində) ictimai fikirdə professional teatr ilə məktəb teatrının fərqləndirilməsi (bunlar arasında daxili əlaqə və təsirlər qorunmaqla) və ayrı-ayrılıqda inkişafı məsələləri gündəmə gəldi. Məktəb səhnəsində tamaşaya qoymaqdan ötrü pyeslər yazılması bu dövr Azərbaycan dramaturgiyasının xüsusi nailiyyəti idi.

Qeyd edək ki, Bakı uşaq teatrı uşaq bədii özfəaliyyət dram dərnəklərinin – məktəb teatrnının əsasında yaranmışdı. Maraqlıdır ki, şəhər 40-saylı pioner dəstəsinin dram dərnəyində çalışan məktəblilər – Ağadadaş

Qurbanov, Y. Dadaşov, M.A. Dadaşov, Məhluqə Abdullayeva, Ə. Əliyeva, Ə. Abbasova, S. Balayev və başqaları Bakı uşaq teatrının ilk aktyorları olmuşlar. Bu aktyor dəstəsindən bir çoxları sonralar öz həyatını məhz bu teatrla bağlamış, tanınmış sənət adamları kimi şöhrət qazanmışlar. Aktyorlar öz tamaşaçılarının həmyaşıdları idilər. Aktyorlar içərisində yaşca ən böyüyü 15 yaşlı Ağadadaş Qurbanov idi.

Bu dövrdə məktəblərdə bədii özfəaliyyət kollektivlərinin geniş şəbəkəsi yaradılmışdır. Bu özfəaliyyət kollektivlərində dram dərnəkləri xüsusi yer tuturdu. Digər özfəaliyyət növləri (xor, musiqi, rəqs və s.) kimi dram dərnəkləri də yetişməkdə olan nəslin tərbiyəsi işinə xidmət etməli idi. Dram dərnəkləri hər şeydən əvvəl, tərbiyə məsələsini nəzərdə tutmalı, uşaqları təhsilə cəlb etmək, onlarda elmə, mədəniyyətə həvəs oyatmaq, ailəni sevmək, əxlaqlı olmaq, müftəxorlara, tənbəllərə və yalançılara qarşı mübarizə aparmaq, sosialist məzmunda olsa da xalqı, vətəni sevmək, yoldaşlıqda, dostluqda möhkəm olmaq kimi keyfiyyətlər aşılamalı idi.

Bədii özfəaliyyət dərnəkləri və xalq teatrlarının aktyorlarının böyük bir qismi sənətə marağı və istedadı ilə seçilən məktəbli həvəskarlardan ibarət idi. Görkəmli səhnə ustaları Mərziyyə Davudova, İsmayıl Dağıstanlı, İsmayıl Hidayətzadə, Ələsgər Ələkbərov, Həsən Turabov, Səyavuş Aslan, Əli Zeynalov, bəstəkar və müğənnilərdən Fikrət Əmirov, Lütfiyar İmanov, Şövkət Ələkbərova, Sara Qədimova, Səid Rüstəmov, Cahangir Cahangirov, Əminə Dilbazi, Zeynəb Xanlarova, Qulu Əsgərov, Arif Babayev və onlarla məşhur incəsənət adamları vaxtilə orta təhsil almaqla yanaşı, bədii öz-fəaliyyət kollektivlərinin fəal iştirakçıları olmuş, yaradıcılıq fəaliyyətinə məktəb yaşlarından, klub və mədəniyyət evlərindəki dərnəklərdən başlamışlar.

**II** fəslin I yarımfəslinin II bəndi **"Müstəqillik dövrü Azərbaycan məktəbi və teatr"** adlanır. Uzun və şərəfli yol keçmiş Azərbaycan teatrı müstəqillik dövründə daha da möhkəmlənərək yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Məlumdur ki, ulu öndər Heydər Əliyev özünün mədəniyyət siyasətində teatra daima yüksək səviyyədə diqqət və qayğı göstərmişdir. Böyük dövlət xadimi Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının əksər tamaşalarının premyerasında iştirak etmişdir. Bu tamaşalar, onların yaradıcı heyəti haqqında Heydər Əliyevin fikir və düşüncələri bu gün də teatr xadimlərinə, sənət adamlarına, aktyorlara, gənc istedadlara yaradıcılıq ilhamı verir.

Bu gün ümumilli lider Heydər Əliyev ənənələrini ləyaqətlə davam etdirən Prezident İlham Əliyev teatrın inkişafına xüsusi qayğı göstərir. 19 fevral 2007-ci il tarixdə "Azərbaycan teatr sənəntinin inkişaf etdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı" teatrların

inkişafında əsl dönüşlə nəticələndi. Prezident İlham Əliyevin "Azərbaycan teatrı 2009-2019-cu illərdə "Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" sərəncamı, "Azərbaycanda peşəkar milli teatrın yaradılmasının 140 illiyik haqqında" imzaladığı sərəncam və digər sənədlər teatr sənətimizin yeni inkişaf mərhələsinə qədəm qoymasına şərait yaratmışdır.

Orta və ali təhsil müəssisələrində fəaliyyət göstərən rəqs, musiqi, dram dərnəklərində, studiyalarda keçirilən müxtəlif növ tədbirlər özünün məzmun və formasına görə müstəqillik dövrünün tələblərinin daşıyıcısına çevrilmişdir. Xalqımızın tarixi, adət-ənənələri, milli və ümumbəşəri dəyərləri tamaşa, oyun və rəqslər vasitəsilə universitetlərdə və məktəblərdə geniş şəkildə təbliğ edilir. Milli bayramlar və tarixi günlərdə hazırlanan belə tamaşa və oyunlar xalqımızın nəcib adət-ənənələrinin yetişən nəsil tərəfindən qorunub yaşadılmasına, bədii qiraət, şeir müsabiqələri, ədəbi-bədii kompozisiyalar, oratoriyalar isə xalqımızın görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətlərinin öyrənilməsinə, müstəqilliyimizin əbədi olduğu inamının möhkəmlənməsinə, azərbaycançılıq, insanpərvərlik, vətənpərvərlik ideyalarının formalaşmasına xidmət edir. Artıq ali təhsil müəssisələrində teatr studiyalarının geniş şəbəkəsi yaradılmışdır.

II fəslin II yarımfəsli **"Naxçıvanda məktəb teatrı ənənələri"** adlanır. Milli teatr ənənələrimizin yaranması və inkişafında Naxçıvan teatrının da yeri və rolu böyükdür. Naxçıvan teatrının tarixi, onun mütərəqqi inkişaf meylləri, teatr hərəkatı tarixində yeri və mövqeyi tədqiqatçılar tərəfindən birmənalı şəkildə etiraf olunmuş, yüksək qiymətləndirilmişdir. Görkəmli teatrşünas alim Cəfər Cəfərovun yazdığı kimi, "...Naxçıvan teatrı öz-özlüyündə bir teatr olmaqla qalmır, milli teatr mədəniyyətimizin mühüm bir qolunu, üzvi bir parçasını, teatr hərəkatının, səhnə sənətinin inkişaf prosesinin təsirli amilini təşkil edir".[1]

Tədqiqat zamanı Naxçıvan teatrının yaranması və inkişafı ilə bağlı araşdırmalarda dəqiq olmayan, bir-birini təkzib edən fikirlərin mövcudluğu müşahidə etdilmişdir. Belə bir hal nüfuzlu nəşrlərdə, görkəmli alimlərin, bu sahənin araşdırıcılarının əsərlərində də yer almışdır. Bütün bu fikir və mülahizələr diqqətlə örənilmiş, Naxçıvanda ilk tamaşanın 1883-cü ildə baş tutdugunu göstərən alimlərin fikirləri əsas götürülmüşdür.

Naxçıvanda milli səhnə sənətinin yaranması və inkişafı ziyalıların, müəllimlərin, tələbə və şagirdlərin fəaliyyətinin nəticəsi idi. Maraqlıdır ki, bu cəfakeş sənət pərvanələrindən heç birinin teatr təhsili olmamışdır. Bircə tamaşaya belə baxmayan həvəskarların meydana atılması, bununla da peşə-

[1] Cəfərov C.H. Əsərləri, 2 cilddə, I cild. Bakı: Azərnəşr,1959, s. 14

kar səhnəyə gedən yolun aydınlandırılması həqiqi bir sənət fədailiyi idi. Akademik İsa Həbibbəyli yazır: "Maarifçi qüvvələri bir məqsəd uğrunda, vahid cəbhədə birləşdirmək baxımından teatr daha geniş imkanlara malik idi. Naxçıvan teatrı ayrı-ayrı peşələrdə çalışan, cəmiyyətin müxtəlif təbəqələrini təmsil edənləri özündə cəmləşdirən mühüm mədəni mərkəz idi. Göstərilən dövrün bütün tərəqqipərvər adamları, maarifçi ziyalıları bu mərkəzin ətrafında birləşmişdi. Zamanın əsas, aparıcı ideyaları da həmin mədəniyyət mərkəzi vasitəsilə xalqa çatdırılmışdır". [1]

Naxçıvanda "məktəb taetrı" ilk dəfə Şərur rayonunun Baş Noraşen ( indiki Cəlilkənd) zemstvo məktəbində baş tutmuşdur. Tamaşa məktəbin müdiri Məhəmməd Qazıyevin rəhbərliyi ilə hazırlanmışdır. Tamaşada göstərilən əsər Cəlil Məmmədquluzadənin "Çay dəsgahı" adlı birpərdəli alleqorik dramı idi .

XIX əsrin 90-cı illərində Naxçıvan teatrı məktəblə birlikdə əhali arasında maarifin yayılması işini başlıca vəzifə olaraq həyata keçirirdi. Ziyalılar bütünlükdə teatr həvəskarları kimi çıxış edirdilər. Cəlil Məmmədquluzadə müəllimliklə bərabər, teatr tamaşalarına quruluş verir, rejissorluq edirdi. Bu teatr Rza Təhmasib kimi gənclərin həyat yolunu müəyyənləşdirmişdir. Rza Təhmasib hələ M.T. Sidqinin məktəbində teatr tamaşasının iştirakçısı olmuşdur. Məktəb nəfinə xeyriyəçilik və "məktəb teatrı" diyarın Ordubad, Culfa şəhərlərində, Şərur mahalının kənd məktəblərində də geniş yayılmışdır. Culfa teatr həvəskarları böyük şair Mirzə Ələkbər Sabirin ağır xəstəliyi ilə əlaqədar ianə toplanmasında əsl qeyrət nümunəsi göstərmişlər. Tamaşadan əldə olunan 25 manat Qurbanəli Şərifzadənin vasitəsilə xəstə şairə göndərilmişdir.

Diyarın kəndlərində də teatr həvəskarları dəstəsi yaranırdı. 1917-ci ildə Ordubadın Əylis kəndində müəllim Vahab Həsənzadənin təşəbbüsü ilə hazırlanmış tamaşalar diqqətəlayiq hadisə hesab oluna bilər.

Naxçıvan qız məktəbində də teatr tamaşalarının hazırlanması dövrün maarifçi hərəkatının, teatr sənətinin mühüm nailiyyəti idi. Məktəbdə Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettası da tamaşaya hazırlanmışdır. Bu hadisə məktəbin "teatr həyatında" çox maraqlı bir səhifəni təşkil edir.

1920-ci ildən etibarən Naxçıvanda sovetləşmə prosesi teatr sənətinin sosialist ideologiyası təsiri altında inkişafını şərtləndirdi.

---

[1] Həbibbəyli İ.Ə. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997, s.183.

Naxçıvan məktəb teatrının iştirakçısı olan şagirdlərin böyük bir qismi səhnə sənətini sonradan özlərinin həyat idealına çevirmişlər. Rza Təhmasib, Əli Xəlilov, Rza İsfəndiyarlı, Həsən Səfərli, Səməd Mövləvi, İbrahim Həmzəyev, İsa Musayev, Əyyub Haqverdiyev, Mirhəsən Mirişli və başqaları sənət aləmində ilk addımlarını məhz məktəb teatrında atmışlar.

Hazırda Naxçıvanda yaşayıb fəaliyyət göstərən aktyorların bir çoxu da böyük və unudulmaz ənənələri olan məktəb teatrının yetirmələri hesab oluna bilər.

II fəslin III yarımfəsli **"Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr studiyası"** adlanır.

Bu gün teatr və incəsənətin digər sahələri üzrə ixtisaslı kadrların hazırlanması işinə xüsusi əhəmiyyət verilir. Bu işdə ali teatr məktəbləri (sahə universitetləri) ilə yanaşı, ümumi universitetlərdə yaradılan studiyalar da əhəmiyyətli rol oynayır. Bu mənada Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən Tələbə Teatr Studiyası çox gözəl nümunə sayıla bilər. Studiya görkəmli elm xadimi akademik İsa Həbibbəylinin bilavasitə təşəbbüsü və rəhbərliyi əsasında yaradılmışdır. İndi ölkənin nüfuzlu ali təhsil ocaqlarından sayılan Naxçıvan Dövlət Universitetinin mədəni həyatını Tələbə Teatr Studiyası olmadan təsəvvür etmək qeyri-mümkündür. Həqiqətən də, studiya universitetin mədəni həyatının tərkib hissəsinə, çoxminli kollektivin mənəvi-estetik ehtiyaclarının ödənilməsi işinə xidmət edən təsisata çevrilmişdir.

İlk tamaşa üçün tanınmış alim-dramaturq Kamal Abdullanın "Beyrəyin taleyi" pyesi seçilmişdi. Dərin psixologizmi, həyati fəlsəfəsi ilə fərqlənən pyes "Kitabi-Dədə Qorqud" dastanlarının motivlərinin müasir düşüncə prizmasında uğurlu həlli kimi diqqəti cəlb edir. "Beyrəyin andı"nın ilk tamaşası 1999-cu ilin may ayının 29-da baş tutdu. Tamaşa "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illiyinə yaradıcı heyətin layiqli töhfəsi idi. Azərbaycan Respublikasının xalq artisti Kamran Quliyev, tanınmış rejissor Mərahim Fərzəlibəyov məşqlərin gedişi zamanı yaradıcı heyətlə görüşmüş, məsləhət və tövsiyələr vermişdilər. Əsərin müəllifi Kamal Abdulla tamaşaya baxmış, studiyanın kollektivi ilə tamaşa haqqında təəssüratlarını bölüşmüş, faydalı tövsiyələr vermişdir. Respublikanın xalq artisti Həsənağa Turabov, tanınmış teatr rejissoru Azər Paşa Nemətov və sənətşünaslıq üzrə elmlər doktoru İlham Rəhimli tamaşa haqqında xoş təəssüratlarını yaradıcı kollektivlə bölüşmüşlər.

Tamaşa Türkiyə səhnəsində də böyük uğur qazanmışdır. Həmin il iyul ayının 18-dən 24-dək Türkiyə Cümhuriyyətinə dəvət olunumuş kollektiv qardaş ölkənin Bayburt şəhərində Uluslararası "Dədə Qorqud- 1300"

mədəniyyət və sənət festivalında "Beyrəyin andı" tamaşasını uğurla nümayiş etdirmiş, festivalın xüsusi diplomuna layiq görülmüşlər.

Studiyanın ikinci tamaşası türk yazıçısı Turan Oflazoğlunun "Atatürk" əsəri əsasında səhnələşdirilmiş "Türklərin Atatürkü"dür. Mustafa Kamal Atatürkün cümhuriyyət uğrunda mübarizəsini əks etdirmək, bu fonda xalq və rəhbər, millət və lider birliyinin gücü, təntənəsini üzə çıxarmaq tamaşada izlənilən əsas məqsəd idi. Əsər dəfələrlə Türkiyənin bir çox şəhərləri və universitetlərinin tamaşa salonlarında nümayiş etdirilmişdir.

2003-cü ildə repertuara daxil edilən əsər Cəlil Məmmədquluzadənin "Anamın kitabı" oldu. Pyesinin ideya məzmunu, estetik dəyərləri yazıldığı gün üçün nə qədər əhəmiyyətli olsa da, bu günümüz üçün də keçərlidir. Ona görə ki, əlli milyonluq bir xalqın nümayəndəsi kimi hamımız anamız Azərbaycanın başına dolanmasaq, dilimizi, milli mənliyimizi qorumasaq, məhvə məhkum olarıq. Pyesə müraciətdə əsas məqsəd, estetik ideal kimi bu ali qanunu bir daha tamaşaçıya çatdırmaq olmuşdur.

Studiyanın növbəti uğuru Cəlil Məmmədquluzadənin "Ölülər" əsərinə yeni səhnə həyatının verilməsidir. "Ölülər" xalqın mənəvi-ruhi aləmində böyük yeniliklər yaratmaq idealının qeyri-adi təzahürü kimi hər zaman öz təsir qüvvəsini saxlamaqdadır. Mövhumat və cəhalətin tüğyan etməsi, mənəvi buxovlar, durğunluq, gerilik, əlbəttə ki, Şeyx Nəsrullahların cəmiyyət həyatında eybəcər "pleyada" yaratmaları ilə nəticələnir. İnsanların avamlığı və cahilliyindən sui-istifadə, öz məqsəd və ehtiraslarını ödəmə psixologiyası harda, nə zaman varsa Şeyx Nəsrullah da orada var. İnsanlıq bu səviyyədə mənəvi aşılanmaya qarşı mübarizəyə ruhən, mənən həmişə hazır olmalıdır.

"Ölülər" tamaşası Naxçıvan şəhərinin Gənclik mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun, Muxtar Respublika ziyalılarının, ədəbi-ictimai mühitinin iştirakı ilə göstərilmişdir. Tamaşadan sonra Naxçıvan Dövlət Universiteti Tələbə Teatr Studiyasının kollektivi ilə görüşən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri cənab Vasif Talıbov demişdir: "...Cəlil Məmmədquluzadə öz həyatını Azərbaycan xalqının intibahına, gənclərin maariflənməsinə həsr etmişdir. Tələbə aktyorlar bu günkü tamaşada Cəlil Məmmədquluzadənin istəklərini tamaşaçılara uğurla çatdırdılar."[1]

---

[1] Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası "Ölülər" əsərinə yeni səhnə həyatı vermişdir. "İki sahil" qəzeti, 20 iyun 2009.

Studiyanın 2012-ci ildə səhnə həyatı verdiyi əsər dünya şöhrətli türk yazarı Nazim Hikmətin “Qəribə adam” pyesi olmuşdur. Əsərə müraciətin başlıca səbəbi onun müasir həyatla səsləşməsi ilə bağlıdır. Burada mənəviyyatsızlıq, pul və ucuz şöhrət düşkünlüyünə susamışlar öz qarşısında, tərəf-müqabildə “qəribə adamla” üz-üzə durmalı olur və beləliklə də, kəskin konflikt və ziddiyyətlərin yaranması əsərə dərin ictimai məzmun, siqlət verir.

Əhməd Rza obrazı Elnur Rzayevin ifasında öz “qəribə adam” funksiyasını mükəmməl şəkildə yerinə yetirə bilmişdir. Onun hərəkətləri, danışığı, diksiyası belə Əhməd Rza surətinin – müəllif düşüncəsinin açılmasına çox bacarıqla və məharətlə xidmət edir. Rejissor Əhməd Rza surəti ilə insanın daxili aləminin təmizliyi və saflığını nümayiş etdirməyə çalışmışdır. Əsər boyu təlqin olunur ki, məhz mənəvi olan insanın ən ali, uca, təmiz keyfiyyətləridir.

Studiyanın 2013-cü ildə hazırladığı tamaşa antik dövrün faciə ustası Esxilin “Zəncirlənmiş Prometey” əsəri olmuşdur. Əsər yaradıcı qüvvələrin azadlıq və həqiqət uğrunda min-min illər boyu çarpışmalarının, mənəvi - psixoloji əzablarının tərənnümünə həsr olunmuşdur. Tələbə aktyorların istedadlı oyunu tamaşaçıların marağına səbəb olmuşdur. Bütövlükdə tamaşa studiyanın yeni bir nailiyyətidir.

Tədqiqatın **nəticələrini** aşağıdakı kimi ümumiləşdirmək mümkündür:

XIX əsrdə ölkədə demokratik maarifçi hərəkatın yayılması Azərbaycan teatrının meydana gəlməsinə şərait yaratdı. Ölkədə teatrın yaranması üçün ilkin şərt kimi milli dramaturji materialın – böyük mütəfəkkir Mirzə Fətəli Axunzadənin komediyalarının mövcudluğu idi. Professional teatrımızın inkişaf tarixi göstərir ki, mütərəqqi dünyəvi teatrın meydana gəlməsi üçün yeni, realist dramaturgiyanın yaranması da əsasdır. Bu zaman dramaturgiya ilə səhnənin mümkün qədər qarşılıqlı əlaqəsi qanunauyğunluğu milli profesinal teatrın yaranmasına səbəb oldu. Azərbaycan professional teatrı yetişməkdə olan ziyalı qüvvələrinin- müəllimlərin fədakarlığının nəticəsi, milli məktəb hərəkatının cəmyyət həyatına daxil etdiyi mühüm maarifçi vasitələrdən biri idi.

Həvəskar müəllim, tələbə və şagirdlərin göstərdikləri tamaşalar səhnə sənətimizin iki mühüm istiqamətinin - məktəb teatrı və peşəkar teatrın təməl daşları idi. Həvəskar sənət adamları əsl sənət aşiqləri kimi öz fəaliyyətləri ilə fədakarlıq nümunəsi göstərmişlər. Yarandığı gündən maarifçilik hərəkatının tərkib hissəsi kimi teatrın məktəbə köməklik göstərməsi, əldə edilən vəsaitlə gənclərin təhsil almalarına əməli şəkildə

yardımlar olunması, bəlkə də, bir çox xalqların mədəniyyət tarixində görünməmiş bir hadisə idi. Bu cəhət isə məktəb teatrı ilə professional teatrın qarşılıqlı əlaqələrinin şərti idi.

Məktəb teatrı gəncliyin biliklərə və yüksək tərbiyəvi keyfiyyətlərə yiyələnməsi işində, onların öz fəaliyyət bacarıqlarının inkişafında da mühüm rol oynamışdır ki, bu da onun mədəni irsimizin çox mühüm sahəsi kimi yeri və mövqeyini uzun zamanlar üçün qoruyub saxlamağa zəmanət verir.

**Dissertasiyanın məzmunu aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır:**


1. Azərbaycan milli teatrının yaranmasında ziyalıların rolu // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Naxçıvan: Qeyrət, 2004, № 13, s.159-164
2. XX əsirin əvvəllərində Naxçıvanda məktəb və teatr // Naxçıvan Dövlət Universitetinin Xəbərləri. Naxçıvan: Qeyrət, 2005, №17, s.177-180
3. Tələbə teatrı studyasının dünəni və bu günü // Naxçıvan Dövlət Universitetnin Elmi əsərləri. Naxçıvan: Qeyrət, 2008, №4 (24), s. 265-269
4. Məktəb teatrı ənənələrinin milli səhnə sənətimizin inkişafında rolu // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Naxçıvan: Qeyrət, 2008, №5 (25), s. 304-308
5. Abdulla Şaiq və Azərbaycan məktəb teatrı ənənələri // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Naxçıvan: Qeyrət, 2011, №1, s. 164-167
6. Türkiye - Azerbaycan Medeni ilişkilerinin inkişafında öğrenci tiyatrosunun rolü // Yeni tiyatro. İki aylık sahne sanatları dergisi. Türkiyə, İstanbul: 2009, №11, s. 37-40
7. Naxçıvanda məktəb teatrı ənənələri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai-humanitar elmlər seriyası. Naxçıvan: 2013, №2, s. 225-235.

**Ахмедова Гюльхара Манаф гызы**

**Азербайджанская драматургия и традиции школьного театра**

**РЕЗЮМЕ**

Диссертация состоит из введения, двух глав, включающих шесть подразделов, заключения и списка использованной литературы.

Во введении обоснована актуальность темы, определены цель и задачи, охарактеризованы научная новизна, методологическая основа, теоретическое и практическое значение исследования, дана информация об апробации диссертации.

Первая глава, названная “Роль школы и народных учителей в создании и развитии азербайджанского театра (1873-1920-ые годы)”, состоит из трёх подразделов. Здесь привносится ясность вопросам о почве, обусловившей создание и развитие азербайджанского театра, выборе какой именно комедии М.Ф. Ахундова для спектакля, составе организаторов спектакля и почему он приостановил свою деятельность. Автор пытается выяснить также своеобразие путей создания азербайджанской сцены, её направление реалистического развития, опирающегося на прогрессивные идеалы. Обосновывается мысль, что создание национального театра и его последующее развитие стало возможным благодаря непосредственному участию и бескорыстным заслугам передовой интеллигенции – настоящих народных учителей.

Состоящая из трех подразделов вторая глава диссертации называется “Азербайджанская драматургия и традиции школьного театра 1920-х годов и последующих периодов”. Из анализа архивных документов и статей периодической печати явствует, что в общеобразовательных школах была создана широкая сеть художественно-самодеятельных коллективов, любители, функционирование в этих коллективах, в последующем стали известными театральными деятелями профессиональной сцены. В этой главе рассматриваются вопросы о путях исторического развития сценического искусства в Нахчыване и его связи со школьными театрами, говорится об успехах Студии Студенческого Театра, функционирующей при Нахчыванском Государственном Университете, наконец, о роли самых лучших образцов классической драматургии и драматических произведений, написанных для детей и молодежи, в формировании традиций школьных театров.

В заключении обобщены и подытожены общие научные выводы, вытекающие из содержания исследования. В конце исследования указан список использованной литературы.

Ahmadova Gulkhar Manaf

Azerbaijan Drama and School theatre traditions

SUMMARY

Dissertation includes introduction, two chapters having 6 semi-chapters, conclusion and the list of references.

In the introduction the topicality of the research-work has been grounded, its aim and duties has been determined, scientific novelty of the research-work, methodological basis , theoretical and practical significance has been characterized and the information about the approbation of the dissertation has been given.

The first chapter was titled "The role of the school and folk teachers in the foundation and development of Azerbaijan theatre (1873-1920" includes 3 semi-chapters. Here, Azerbaijan Playveritinq has been dealt with.

The author tried to bring clarity to how the formation and development of Azerbaijan theatre were stipulated, who were the organizers and why they stopped to activate. He made an effort to reveal the individuality of the formation of Azerbaijan theatre, realistic development trend, and basing on the progressive ideas. It is shown that the formation and further development of the national theatre was realized thanks to noble folk teachers' direct participation and disinterested services.

The second chapter of the dissertation including 3 semi-chapters is titled " Azerbaijan school theatre traditions at the Soviet and independen period". It is obvious from the archive documents and the analyses of the press writings of the period that in Soviet comprehensive schools a large tracery of artistic amateur circles have been established and the amateurs acting here had become famous personalities of the professional stage. In this chapter together with Azerbaijan school and theatre at the independence period, the historical development ways of Nakhichevan Stage Art and its relations with school theatre were investigated. The success of Students Theatre Studio attached to Nakhichevan State University, finally the best samples of the classic Drama in the formation of school theatre traditions and the role of drama plays written for children and the young have been mentioned.

In conclusion along the research-work the general scientific results have been generalized and concluded.

At the end of the dissertation the list of used references were given.

Çapa imzalanmışdır: 25.05.2013
Formatı: 60x90, 16/1, həcmi: 1,2 ç/v.
Tiraj: 100, Sifariş №

NDU-nun “Qeyrət” nəşriyyatının mətbəəsində çap olunmuşdur

**МИНИСТЕРСТОВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

**На правах рукописи**

**Ахмедова Гюльхара Манаф гызы**

# АЗЕРБАЙДЖАНСКАЯ ДРАМАТУРГИЯ И ТРАДИЦИИ ШКОЛЬНОГО ТЕАТРА

5716.01 - Азербайджанская литература

**АВТОРЕФАРАТ**

диссертации на соискание ученой степени
доктора философии по филологии

**НАХЧЫВАН-2013**